Məni xoş simalı bir cavan oğlanla tanış elədilər və dedilər ki, uzun illərdir şeirlər yazır, amma bu şeirlərini mətbuatda çap olunmağa vermir. Soruşdum "niyə çap olunmaq istəmirsiniz?" Dedi ki, bilmirəm. Mən hələ özümü bu cavabdehli işə hazır bilmirəm. Dedim ki,„şeirlərini mənə göndər oxuyum, sonra fikirimi deyim. Beləliklə, Anar bəy şeirlərini, qəzəllərini mənə göndərdi və oxudum. Xoşum gəldi. Çünki bu şeirlərdə və qəzəllərdə söz altı mənalar və yeni fikirlər çoxdur. Belə qərara gəldim ki, onun şeirlərini mətbuata çıxarım və qoy oxucular da oxucun, qərarlarını versin.

Ona görə də Anar bəyi oxucularla daha yaxından tanış etmək istəyirəm. Anar Ağaoğlu ( Ağadadaş oğlu Hümmətov) 1983-cü ildə Sumqayıt şəhərində anadan olub.1999-cu ildə Sumqayıt şəhəri 6 saylı tam orta məktəbi bitirib. 1999-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olunub və 2003-cü ildə bu ali məktəbi bitirib. 2004-cü ildən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində, 2007-ci ildən isə qardaş ölkə Türkiyə Cümhuriyyətinin müxtəlif dənizçilik şirkətlərinin gəmilərində mühəndis və baş mühəndis vəzifələrində işləyib. 2022-ci ildən Azərbaycanda Dəniz və Liman Agentliyinin lisenziyası ilə fəaliyyət göstərən "Caspian Lloyd" təsnifat (register) Şirkətində baş mühəndis-müfəttiş vəzifəsində işləyir. O, hələ orta məktəbdə oxuduğu illərdən şeirlər yazır. Amma yuxarıda dediyim kimi mətbuatda çap olunmaq istəməyib və bu cavabdehli işə cürət eləməyib. Amma inanıram ki, Anar Ağaoğlunun bu şeirləri oxucuların xoşuna gələcək və Anar bəy o biri şeirlərini də mətuabtda çap etdirəcək. Ona da inanıram ki, Anar bəy bu çətin, keşməkeşli ədəbiyyat aləmində öz sözünü gələcəkdə layiqincə deyəcək və maraqlı şair olacaq.

**Ağalar İDRİSOĞLU, Əməkdar incəsənət xadimi**

# Onun gələcəyinə inanıram



**Anar AĞAOĞLU**

## Mənim fəlsəfəm

Həyat bir fəlsəfə anlamı dərin,
Mütləq gecəsi var hər bir səhərin,
Bə'zən qonağısan qəmin, kədərin,
Bə'zən də ömür bir biçilməz naxış,
Düz yolu itirmə yağsa da yağış

Kimisə qorxudur qaranlıq dünya,
Kiminsə içində dalğalı dərya,
İstə! Gerçək olar xəyali xülya,
Arzuya tərəf get hətta bir qarış,
Düz yolu itirmə yağsa da yağış.

Hər zaman fitva ver sözün düzünə,
Tək qalsan da yenə güvən özünə,
Allah yolu hər kəs düşər izinə,
Ürəyi təmiz ol islamla tanış,
Düz yolu itirmə yağsa da yağış.

Bar verən ağacın başı aşağı,
İmkan varsa yandır bəndə ocağı,
Çünki, hər kəs bu dünyanın qonağı,
Sonumuz ağ kəfən bununla barış,
Düz yolu itirmə yağsada yağış.

## Dünya

Siması büsbütün yalanla dolu,
Olsada cüzidi həqiqət yolu,
Min illər yaşayan uludan ulu,
İndi də bizlərə qalıbdı dünya !

Birinə dar gəlir, birinə geniş,
Birinə çıxışdı birinə giriş,
Elə bil bu dünya əbədi imiş,
Kimləri yola salıbdı dünya !

Bir üzü sevgidi bir üzü nifrət,
Bir üzü işıqdı bir üzü zülmət,
Kədəri bizlərə eləyib qismət,
Cəfanın içinə alıbdı dünya !

Arzuyla, istəklə döyünər ürək,
Bəzən yaşamağa nifrətdə gərək,
Çarxını tərsinə çevirib fələk,
Kədər musiqisini çalıbdı dünya !

## Həyat və ölüm

Dərd sərimi doldur yenə qəlyana,
Əsl dərsi həyat verir insana.
Yaşamaq heç qoysaq bunu bir yana,
İnsan üçün ölüm böyük sınaqdı.

Düşün amma çoxda dərin düşünmə,
Həyat nərddi düşən zərin düşünmə.
Bu gün yaşa heç səhərin düşünmə
Sabah ayrı düşünsəndə nahaqdı.

Sevinc-kədər aldığımız nəfəsdi,
Qəm içində sanki dünya qəfəsdi.
Arzulamaq yaşamağa həvəsdi,
Niyyət zülmət olsa ümid çıraqdı.

Son yolumuz yenə məzar yoludu,
Nədən dünya işgəncəylə doludu.
Bu dünya da o dünyanın qoludu,
Bir ömürə başqa ömür yamaqdı.

Niyə həyat bizə belə sərt gəlir,
Dərd çəkənə dərd üstünə dərd gəlir.
Anar yenə ölüm üçün mərd gəlir,
Onsuz hər kəs bu dünyaya qonaqdı...

## Əzrayıl qapımda imiş

Həyat bir əsərdi ömür bir kitab,
Sevinclə bərabər acı iztirab.
Naməlum qismətə tapanda cavab,
Gördüm ki, Əzrayıl qapımda imiş.

Qismət dediyimiz böyük bir sual,
Ölməz arzularım olubdu xəyal.
Hicran qəlbimdə salıb qalmaqal,
Sən demə əzrayıl qapımda imiş.

Düşündüm həyatın mənası nədir,
Madəm ki, qəm-qüssə qəlbimi didir,
Dərdi çəkə-çəkə ömürdən gedir,
Vədəsiz Əzrayıl qapımda imiş.

Aqillər, dahilər deyirlər düzü,
Hər şeyə qadirdir insanın özü,
"Ölümdən qorxmuram" bu iki sözü,
Eşitdi Əzrayıl qapımda imiş...

## Qəm içində

Sanki, qərq olmuşam qəm dəryasına,
Nəfəsim çatışmır boğuluram mən.
Dözməyə həyatın bu cəfasına,
Ümiddən güc alıb doğuluram mən.

Söykənib ümidə sönən arzular,
Mənə qüvvət verir nifrətdə bəzən.
Madəm ki, qəlbimdə ümidlər yaşar,
Yenə də həyatda olacayam mən.

Nə bilim bu həyat belə çətindi,
Uzun bir labirint yolları qəliz.
Verəcəm bir qərar düşündüm indi,
Çoxda ki, yaşamaq olsada əziz.

Düşündüm dərindən düşündüm bir an,
Bu uzun gecənin varmı səhəri.
Qaranlıq zülmətdir içimdə cahan,
Hər zaman yaşadır qəmi kədəri.

Acı bir iztirab yaşadır canım,
Bezmişəm, bezmişəm dözməyir ürək.
Nə qədər dərd içində alışım yanım,
Ya buna son qoyum ya ölüm gərək.

## Sönən arzular

Mən niyə ölmüşəm ürəyim vurur,
Bəlkə arzularım gerçəyə dönmür.
Həyata nifrətim hələ ki, durur,
Qaranlıq zülmətdə çırağım sönmür.

Yaşamaq istərəm bir insan kimi,
İnsanlıq anlamı nədir ki, belə.
Mən nədə axtarım tapım məlhəmi,
Qəlbimi göz yaşı döndərib selə.

Bir sevgi hissini duymaq istədim,
Qəlbimdə sevgiyə yer varmı görən.
Kədəri qırağa qoymaq istədim,
Olmaz! Sevgi üçün yer darmı görən.

Qara bir küdurət daxilimdədir,
Bu sevgi hissini yerində boğar.
Talehin günəşi sahilimdədir,
Bezmişəm görəsən nə zaman doğar.

Alovu dünyama işıqlanan an,
Üstümdə buludlar bir məskən qurur.
Ürəyim günəşə həsrətdir yaman,
Mənasız həyatım məni çox yorur.

Talehi dəyişmək olsaydı əgər,
Bu taleh yolunu həmən silərdim.
Desən yeyəcəksən qismətin qədər,
Allaha diz çöküb ölüm diləydim.